Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 16-17 (7478-7479) 1933-cü ildən nəşr olunur Şənbə, 31 mart 2018-ci il. Qiyməti 40 qəpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***30 mart***

*Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu missiyasının rəhbəri xanım Korin Yonkeri qəbul edib.*

***29 mart***

*Prezident İlham Əliyev Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə Beynəlxalq Memarlar İttifaqının prezidenti Bakıda gördükləri inkişafın və gözəlliyin onlarda dərin təəssürat hissi yaratdığını qeyd edərək paytaxtımızın arxitekturasını uğurla himayə etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.*

* * *

*Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani biznes forumda iştirak ediblər.*

***28 mart***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub. Görüşdə dövlət başçıları bəyanatla çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, regionun iki böyük milləti ortaq tarix və mədəniyyətə sahibdirlər. İran-Azərbaycan əlaqələri ən yüksək səviyyəyə yüksəlmişdir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə ölkələrimiz arasında çoxsaylı sənədlərin imzalanması mərasimi olub.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin şərəfinə rəsmi qəbul təşkil olunub. Rəsmi qəbulda ölkə başçıları İran İslam Respublikası və Azərbaycan Respublikası arasında əlaqələrin daha da möhkəmləndirilməsi barədə fikir mübadiləsi aparıblar.*

***27 mart***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Nizami rayonunda inşa edilmiş Bona Dea Beyxəlxalq Hospitalının açılışında iştirak ediblər.*

## Prezident İLHAM ƏLİYEV: *“Keçən il iqtisadi sahədə sabitləşmə ili olmuşdur, bu il isə inkişaf ilidir. Bu ilin iqtisadi göstəriciləri ürəkaçandır. İki ay ərzində qeyri-neft sənayesi 8 faizdən çox, qeyri-neft sektoru 2,3 faiz, kənd təsərrüfatı 3,4 faiz artmışdır. O cümlədən bitkiçilik 40 faizdən çox artmışdır. Bu iqtisadi fəallıq özəl sektorda iş yerlərinin yaradılmasına xidmət göstərir.”*

# Kənd təsərrüfatı məhsulları istehsalının artırılması ərzaq təhlükəsizliyində mühüm amildir



Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev bu yaxınlarda respublikada pambıqçılığın inkişafı məsələlərinə həsr olunmuş müşavirədə bildirmişdir ki, son illər kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə ərzaq təhlükəsizliyini təmin edən əsas sahələr üzrə böyük nailiyyətlər əldə olunub. Ölkəmiz əsas sahələr üzrə ərzaq məhsulları istehsalını əhalinin tələbatına uyğun səviyyəyə qaldırmışdır. Belə ki, Azərbaycanda ət istehsalı əhalinin tələbatını 100 faiz, süd istehsalı 80-85 faiz ödəməyə imkan verir.

Möhtərəm Prezidentimiz başda olmaqla dövlətin qeyri-neft sektorunun inkişafında xüsusi diqqət yetirdiyi ən vacib sahələrdən biri kənd təsərrüfatıdır. Ölkəmizdə əhalinin böyük bir qisminin çalışdığı aqrar sahənin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dövlətinin kənd təsərrüfatının və onun ənənəvi sahələrinin inkişafına verdiyi dəstək region ölkələri ilə müqayisədə olduqca yüksəkdir.

Dövlətin bu dəstəyinin nəticəsidir ki, artıq ölkəmizdə aqrar sektorun inkişafının stabil və dayanıqlı olduğunu söyləmək mümkündür. Faktlar da dediklərimizi sübut edir. 2018-ci ilin yanvar-fevral ayları üzrə aqrar sektorda istehsal olunmuş məhsulların faktiki qiymətlərlə dəyəri 558,1 milyon manat təşkil etmişdir ki, onun da 542,2 milyon manatı heyvandarlıq məhsullarının payına düşür. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə kənd təsərüfatı məhsullarının istehsalı üzrə 3,4, o cümlədən bitkiçilik məhsulları üzrə 43,8, heyvandarlıq məhsulları üzrə 2,6 faiz çoxdur.

Yanvar və fevral ayları ərzində respublikamızda 16,3 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 1,9 dəfə çox tərəvəz məhsulları istehsal olunmuşdur. İstehsalın artmasını şərtləndirən bir sıra səbəblər vardır. Əlbəttə, buraya birinci növbədə dövlətin məhsul istehsalçılarına göstərdiyi qayğı daxildir. Dövlətin diqqət və qayğısı sayəsində istehsal olunmuş məhsulun bazarlara çıxarılması xeyli asanlaşmış, süni əngəllər aradan qaldırılmışdır.

İstehsalın artımı həmdə kömrük prosedurlarının xeyli sadələşdirilməsi ilə bağlıdır. Belə ki, yalnız bu ilin birinci ayında xaricə ixrac edilən məhsullarının məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 142,6 faiz artmışdır. Bu ilin yanvar ayında meyvə ixracında da artım, ötən ilin müvafiq dövrü ilə müqayisədə 145,9 faiz çox olmuşdur.

Bu ilin iki ayı ərzində bitkiçilik məhsulları ilə yanaşı heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Yanvar-fevral ayları ərzində ölkədə 76,2 min ton ət, 299,8 min ton süd, 281,9 milyon ədəd yumurta istehsal olunmuşdur. Bu rəqəmləri ötən ilin müvafiq dövrü ilə müqayisə etdikdə ət istehsalında 3,4, süd və yumurta istehsalında 1,1 faiz artım olduğunu görürük.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmizdə aqrar sektor dövlətin hərtərəfli qayğı və diqqəti sayəsində dinamik inkişaf edir. Kənd təsərrüfatının inkişafı ölkəmizdə əhalinin ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı respublikamızın müxtəlif məhsullarının xarici bazarlara ixrac potensialını da artırır ki, bu da iqtisadiyyatın neft və neft məhsulları ixracından asılılığını əhəmiyyətli dərəcədə azaldır.

**«Qəbələ»**